# Bu torpağın daşı olub qalaydım...

Tale yazısını Tanrıdan başqa heç kəs yaza da bilməz, oxuya da. Çünki ömrü Tanrı yazar... Nə yaxşı ki, insan öz ömrünün qədərini, həyatda nələrlə qarşılaşacağını bilməz. Sadəcə ağıl və dərrakə ilə hərəkət edərsə, öz yaşam tərzini insani keyfiyyətlərə yönləndirə bilər.



İnsan yaşadığı mühitdə formalaşar, qarşılaşdığı çətinliklər həlli yolunu tapmadıqca insan aldığı zərbədən kobudlaşar, yaşamla mücadiləyə düzgün istiqamət tapmazsa, eniş-yoxuş qorxusu o insanın xarakterinə təsir edər. Ancaq öz ayaqları üstündə durmaq üçün zamana ehtiyac olar həmişə. Çünki zaman öz tipik problemləri ilə insanları sınağa çəkər. Heç kimin ağlına belə gəlməzdi ki, görmədiyi məkanlar uğrunda insan öz ölümünə belə rəvac verər. Ancaq körpə, gənc, yaşlı - hər kəs Vətən deyilən bir məfhumu apaydın dərk edər, onu ana bilər. Əgər belə olmasaydı 18 yaşlı gənclər Vətən qayalarında mamır olub bitmək istəməzdi. Vətənin dar günündə onun harayına çatmazdı. Tarix dərsliklərini daha mükəmməl oxumasa da, Vətən tarixini yenidən yazmazdı; həm də Zəfər tarixini...

Bax, elə Zəfər tarixi yazan igid gənclərdən biridir Elməddin. O Elməddin ki, uşaqlığından yenicə ayrılmış, gəncliyinə qədəm qoymuşdu. Həyatda insan kimi yaşamaq üçün arzularını nizamlayırdı. Öncə vətən borcunu yerinə yetirmək, həqiqi hərbi xidmətə gedərək orduda xidmət etmək istəyirdi. Axı Elməddin də bilirdi ki, işğal altında olan torpaqlarımız azad olmalı, evlərindən məcburən köçkün olmuş insanlar öz doğma məkanlarına qayıtmalı, sönmüş ocaqlarını yenidən yandırmalıdırlar. Həmçinin 30 ilə yaxın bir müddət ərzində I Qarabağ müharibəsində qazanılmayan qələbə mütləq qazanılmalı, məğlub ordu məfhumu ordumuzun adından götürülməlidir. Məhz ona görə də Elməddin orduda xidmət edərək xidməti dövründə əsil bir vətən döyüşçüsü kimi lazımi bilikləri və təcrübələri öyrənməli idi.

Elməddin Məhəmməd oğlu Mustafayev 2001-ci il mayın 1-də Qəbələ şəhərində anadan olimuşdur. Şəhər 4 saylı orta məktəbində təhsil almışdır. 2017-ci ildə Qəbələ Rayon Peşə Məktəbində aşpazlıq fakültəsinə qəbul olunmuşdur.

2019-cu il iyulun 5-də həqiqi hərbi xidmətə çağırılmışdır. O, Füzuli rayonunda xidmət edirdi. II Vətən Müharibəsinin başlanması üçün ölkə Prezidenti İlham Əliyev sərəncam verərkən Elməddin bu müharibədə döyüşlərə özünü hazır hiss etmiş və döyüşlərə qoşulmuşdur. İşğal altında olan ərazilərin düşmən əsarətindən təmizlənməsi üçün Elməddin mərdliklə vuruşmuşdur. Özü körpə olsa da, onun arzuları böyük idi. Torpaqlarımızı azad etmək, Zəfər gününü görmək, şəhid ruhlarının narahatçılığına son qoymaq başlıca arzuları idi. Lakin amansız düşmən gülləsi onu arzularının reallığını görməyə imkan vermədi. Elməddin oktyabrın 10-da Füzuli uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. O, Qəbələ şəhər qəbristanlığında dəfn olunmuşdur.

Arzuları qəlbini çulğalamış bir gənc idi Elməddin; torpağına, Vətəninə, elinə bağlı. Fəlsəfi şairimiz Məmməd Araz öz şeirlərindən birində yazırdı ki,

***Qayalara həkk olmayan***
***söz istər,***
***Bu bahardan o bahara***
***iz istər.***
***Üzüm dəyə çiçəklərə***
***üzü tər,***
***Yoxdu özgə umacağım...***

Yox, Elməddin, bu bahardan o bahara izlər itə bilər, ancaq sənin kimi igid, qorxmaz oğulların tariximizə yazdığı "bu izlər" əbədidir. Şəhadət yolçusu olmaq, şəhid adı qazanmaq hər oğula qismət olmur. İndi Vətən çiçəkləri hər biri sənə boylanır göylərdəki ruhuna gülümsəmək üçün. Sənin başqa umacağın yox ki...

Bu torpağın azadlığı, bütövlüyü uğrunda canını fəda etdin, bu torpağın bir parçasına, daşına çevrildin...

Şeirdə deyildiyi kimi:

***...Bu torağın daşı olub***
***qalaydım,***
***Yoxdu özgə umacağım...***

Sən Zəfər tarixini yazdın, çox gənc olmana rəğmən Vətənin bir qəhrəman oğlu kimi əbədiyyən bahar ömürlü olaraq ürəklərə, yaddaşlara köçdün. Ruhun şaddır indi, çünki qalib bir ölkənin qəhrəman övladısan! Həm də qəddini əydiyin atan, gözüyaşlı anan, gözlərində qəmli bir qardaş dastanı həkk olan bacın Vətənə əmanət!

Sənsə... Sənsə hər bir vətənpərvər insanın qəlbində məskunlaşan özü körpə, əməlləri - igidliyi böyük olan Vətən qəhrəmanı!

"Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları sənə ölümündən sonra verilmişdir, igidim! Ancaq sən bütün təltiflərin, igidliklərin ən ali adını, dərəcəsini döyüşlərdə və şəhadət yolçuluğunda qazanmısan! Bu - Şəhid adıdır. Qəhrəmanlığın ən ali dərəcəsi, ən ali titulu!

Yaddaşlarda əbədi yaşayan igidim - Elməddin Mustafayev, məkanın cənnət olsun! Atan Məhəmməd, anan Könül, bacın Sədaqət və eləcə də bütün xalqın vüqar dağı, körpə Elməddin! Tarix varkən tarixlərdə yaşayacaqsan!

**BİBİXANIM.**

# Qərbi Azərbaycana qayıdışa inam

**Azərbaycan tarixən qədim bir diyar, qədim bir xalqdır. Onun dövlətçiliyi - bir dövlət kimi tanınması və zühuru üçün məxsusi olaraq nə lazımdırsa, hamısına sahib olmuşdur. Təbii və həyat üçün yararlı olan faydalı elementləri, barlı-bəhərli torpağı, dənizi, çayı, gölü, mənsub olduğu dini, vətənpərvər, mənəvi baxımdan da zəngin insanları, ölümə belə can verməyi bacaran övladları olan xalqı, savadlı ziyalıları, idarəetməni bacaran dövlət rəhbərləri və güclü siyasi iş aparmağı bacaran siyasətçiləri.**

**Azərbaycan xalqı öz tarixi keçmişinə söykənən bir dövlətə məxsusdur. Bu dövlətə xəyanət edən, xalqı işgəncəyə məruz qoyan, qədim tariximizi özününküləşdirməyə səy göstərən hər kəs - istər dövlət, istərsə də ayrı-ayrı vəzifəsindən istifadə edən və nasist, faşist əqidəli qurumlara arxayın olan hər kəsin aqibətini, sonunu tarix bəyan etmiş və edir.**

**Torpaqdan, vətəndən pay olmaz, xalq və onun soyu-kökü təkzib edilə bilməz. Bu gün ölkəmiz qalib bir dövlət kimi bütün dünyada tanınır. Tarixən bizə aid olanlar bizimdir və bizim də olacaq!Çünki Azərbaycan xalqı tarixən qəhrəmandır, bu onun aid olduğu tarixə və tarix yazan igidlərinə istinadəndir. Yaxın gələcəkdə Qərbi Azərbaycanın hər qarışı düşmən tapdağından, xəyanətkar məngənəsindən azad olacaqdır. Bu xalqımızın ən ümdə istəyidir. Xəyanətlə güc qazanmaq daimi, əbədi deyil, gec-tez ədalət öz yerini tutur və tutacaq! Düz 30 il sonra Qarabağımız, işğalda olan torpaqlarımız cəmi 44 günə alındısa, deməli mənfur qonşularımızda qalan tarixi yurd və məkanlarımız da zamanla öz tarixinə aid olacaq.**

*"Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi 1905, 1918-ci illərdə Azərbaycan əhalisini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə canlının indiki Ermənistan ərazisindəki xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir.*

İlham Əliyev,
Azərbaycan
Respublikasının Prezidenti

**Qərbi Azərbaycan ərazisi bütöv Azərbaycanın ən qədim, təbiətinə görə ən zəngin bölgələrindən biridir. Keçmişdə Azərbaycanın şimal ilə cənubunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən mühüm karvan yollarının üstündə yerləşən, hazırda isə şimaldan Gürcüstan, şərqdən və cənub şərqdən Azərbaycan Respublikası, qərbdən Türkiyə, cənubdan İranla həmsərhəd olmaqla 298 min kvadratkilometr sahəni əhatə edən bu diyar indi erməni - hay dövləti kimi tanınsa da, onun ərazisi son qarışına qədər qədim Türk-Oğuz yurdu, tarixi Azərbaycan torpağıdır.**

**Bunu həmin ərazidəki saysız-hesabsız yeraltı və yerüstü maddi mədəniyyət nümunələri - qədim yaşayış məskənləri, kurqanlar, qala, saray və istehkam qalıqları,karvansaralar, körpülər, at, qoç heykəlləri, məscid, pir və ocaqlar da təsdiq edir.**

**Bu günlərdə Qərbi Azərbaycan İcmasının Qəbələ rayon üzrə nümayəndəsi İsmayıl Hüseynovla görüşərək ondan müsahibə almışıq.**

**Müsahibəmizi oxucularımıza təqdim edirik.**



**- İsmayıl müəllim, ilk növbədə sizi tanımaq istərdik.**

- Mən 1960-cı ildə Qəbələ rayonunun Mirzəbəyli kəndində doğulmuşam. Orta təhsilimi də bu kənddə almış, sonra isə Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşam. Universiteti bitirdikdən sonra Mirzəbəyli kənd orta məktəbində tarix fənnini tədris etmişəm. Mənim babam əslən Qərbi Azərbaycandan olmuşdur. Atamın söhbətlərindən öyrənmişəm ki, onların, yəni bizim dədə-baba yurdumuz Yerevan olmuşdur.

2024-cü ildən Qərbi Azərbaycan icmasının Qəbələ üzrə nümayəndəsiyəm.

**- Sizin babanız kim olmuşdur?**

- Babalarım Yerevan (İrəvan) şəhərində yaşamışlar. Ata babam Səməd Hüseynov mədrəsə təhsilli olmuşdur. O Yerevan şəhərində Cümə məscidinin axundu olmuşdur. Ona məxsus olan "Qurani-Kərim" hazırda yaşadığım evdə saxlanılır.

**- Qərbi Azərbaycanın parçalanma, deportasiya dövrləri haqda qısaca da olsa oxucularımıza məlumat verə bilərsinizmi?**

- Qərbi Azərbaycanda o zaman çox az sayda erməni yaşamasına baxmayaraq, onlar öz havadarlarının himayəsi altında "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Sonra isə "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramın mühüm hissəsini təşkil edirdi. "Böyük Ermənistan" xülyasından ruhlanan erməni qəsbkarları 1905 - 1907-ci illərdə azərbaycanlılara qarşı qanlı aksiyalar həyata keçirdilər. 1-ci Dünya Müharibəsindən, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən erməni daşnaklar Qərbi Azərbaycanda soydaşlarımıza qarşı qanlı cinayətlər törətdilər, çoxları doğma yurdlarını tərk etdilər. Bu 1918-ci ilə təsadüf etmişdi.

SSRİ Nazirlər Sovetinin 10 dekabr 1947-ci il tarixli 4083 nömrəli qərarında göstərilirdi ki, 1948 - 1950-ci illərdə "könüllülük" prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min azərbaycanlı Azərbaycanın Kür - Azaz ovalığına köçürüldü. Bu qəti repressiya idi. İ. Stalinin ölümündən sonra köçürülmə dayandırılır. Lakin zorla Kür - Araz vadisinə köçürülən əhalinin aqibəti daha acınacaqlı olmuşdur.

Qərbi azərbaycanlıların son deportasiyası 1988-ci ildə baş vermişdir. M. Qorbaçovun xəyanəti nəticəsində 300 minə yaxın soydaşımız məcburən yaşadıqları ərazilərdən çıxarılmışlar.

**- İsmayıl müəllim, bu deportasiyaların təşkilatçıları və səbəbləri haqda nə deyə bilərsiniz?**

- Bu deportasiyaların əsas səbəbi çarizmin milli ədavəti qızışdırmaqla xalqları əsarətdə saxlamaq, ermənilərin vasitəsilə Azəri və Osmanlı türklərinin birliyini sarsıtmaq idi. Təşkilatçılar isə deportasiya etmək üçün qərar və qətnamə verənlər idi. Bu, tarixi faktlardan daha aydın görünür.

**- Sizin ata- babalarınız öz yurdlarından nə zaman deportasiya olunmuşlar? Köçkünlük həyatı yaşamısınızmı?**

- Mənim babalarım 1918-ci ildə Yerevan şəhərindən deportasiya olunmuşlar.

Mən qeyd etdiyim kimi, Qəbələdə doğulmuşam. Bura mənim vətənimdir. Ata-baba yurdu haqda atamın söhbətlərində eşitmiş, məlumatım olmuşdur. Bir sözlə, Qəbələdə köçkün həyatı yaşamamışam. Ancaq atamın söhbətlərindən deportasiya olunarkən babalarımın çox çətinliklərlə qarşılaşdıqlarını eşitmişəm.

**- Ata-baba söhbətləri sizin hafizənizdə Qərbi Azərbaycan - vətən haqda necə təəssürat yaratmışdır?**

- Qərbi Azərbaycan haqda tarixi faktlarla həmişə maraqlanmışam, öyrənməyə çalışmışam. Seçdiyim ixtisas da təsadüfi deyil, axı mən tarix fənnini tədris etmişəm.

- Bildiyimiz kimi, hazırda deportasiya olunan Qərbi Azərbaycan İcması Qəbələ rayonu üzrə nümayəndəsiniz. Bu fəaliyyətinizlə bağlı nə deyə bilərsiniz?

- Nümayəndəlik Qəbələ şəhər Fazil Rəhimov küçəsi 11 ünvanında yerləşir. Onlar xüsusilə 1988 - 1991-ci illərdə deportasiya olunanlardır. Onlar 32 nəfərdirlər. Bu sakinlər rayonun 19 kəndində məskunlaşmışlar. Onlar etnik adət-ənənələrini qoruyub saxlayırlar. Onlarla tez-tez görüşlər keçirilir. Mən 2024-cü ildən onlarla birgə Qərbi Azərbaycan ağrı-acılarının təəssüratlarını əyani faktlarla öyrənirəm. Onu da qeyd edim ki, nümayəndəlik fəaliyyətini rayon icra hakimiyyətinin müvafiq şöbəsi ilə sıx əməkdaşlıq, tövsiyə və köməkliyi ilə qurmuşdur.

**- O məkanların qaytarılmasına inamınız varmı və orada yaşayardınızmı?**

- Babam, atam öz yurdlarına qayıtmaq arzusu ilə yaşamışlar. Ancaq bu onlara qismət olmamışdır. Mən o məkanı görməsəm də ata-baba yurdu kimi çox istərdim ki, Qərbi Azərbaycan əsarətdən xilas olsun və biz - deportasiya olunan insanların nümayəndələri, xələfləri oraya qayıdaq və qalan ömrümüzü orada yaşayaq. Gələcək nəsil öz tarixi torpaqlarımızda yaşasın! Və mən bunun real olacağına çox inanıram. Axı biz güclü ordusu və yenilməz qüdrəti olan bir ölkənin, xalqın övladlarıyıq. Qayıdış gününü isə böyük inamla gözləyirik!

**- İsmayıl müəllim, arzularınız çin olsun və olacaq!**

***Müsahibəyə görə də çox sağ olun!***

**Bibixanım İSAYEVA.**